Novruzova S.S.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2023.71.65-73
UOT: 340.130.3-2

# Klassik beynəlxalq hüququn təşəkkül və inkişaf tarixinə dair

**Xülasə:**Təqdim olunan məqalə tarixdən məlum olan ilk dövlətlərarası sazişləri və tarixi mənbələrdə dövlətlər arası münasibətlərə dair qeydləri tədqiq etməklə klassik beynəlxalq hüququn genezisini araşdırmaq məqsədi daşıyır. Bu məqsədlə, klassik sistemin yaranmasınadək xalqlar və dövlətlərarasında yaranmış normativ münasibətlərin ümumi səciyyəsini vermək, bu münasibətlərin hansı yaşam zərurətlərindən doğduğunu, müharibə və ticarətin təsirini, dini-mifoloji görüşlərin rolunu, fəlsəfi və digər intellektual məktəblərin tövhəsini və sair əlaqəli məsələləri araşdırmaq zəruri sayılmışdır.

**Açar sözlər**: beynəlxlaq hüquq; saziş; xalqlar; dövlət.

Beynəlxalq hüququn genezisinə dair ədəbiyyatda bır sıra yanaşmalara rast gəlinir. Bunlardan klassik və ya avromərkəzli yanaşmaya əsasən, beynəlxalq hüquq orta əsrlər Avropada meydana gəlmişdir. Bu nəzəriyyənin tərəfdarları - F.Martens, M.Taube L.Kamarovski, Q.Lauterpaxt, E.Nis və digərləri hesab edirdilər ki, beynəlxalq hüquq ilkin olaraq Avropada 13-16-cı əsrlərdə yaranmağa başlamış, 1648-ci il Vestfal sülhünün bağlanması ilə ilkin şəklini almışdır. Bundan sonra beynəlxalq hüquq Avropa sərhədləri xaricində digər dövlətlərə də sirayət etmiş, onların tədricən Avropa sivilizasiyasına inteqrasiyası çərçivəsində qlobal miqyas almışdır [12, s.10]. Bu nəzəriyyə tərəfdarları 13-cü əsrədək Avropada və ya dünyanın hər hansı digər bölgəsində beynəlxalq hüququn mövcud olduğunu inkar etmiş və belə əsaslandırmışlar ki, qədim dövr dövlətləri bir-birindən əlaqəsiz şəkildə mövcud olmuş, dövrün mədəni-ideoloji səviyyəsi beynəlxalq hüquq kimi yüksək mədəni səviyyə tələb edən sistemin meydana çıxmasına imkan verməmişdir.

Digər bir yanaşma beynəlxalq hüququn qədim dövrlərdən meydana gəldiyini iddia edir. 19-cu əsrin ikinci yarısından başlayaraq arxeologiya və etnoqrafiya sahəsində edilən kəşflər bir çox elm sahələri ilə yanaşı beynəlxlaq hüquq sahəsində də mövcud olan baxışların yenilənməısinə səbəb olmuşdu. Əldə edilən materiallar (Amarna, Boğazköy arxivləri və sair) qədim Mesopotamiya və Misirdə dövlətlərarası hüquq və diplomatik münasibətlərin əvvəllər zənn edildiyindən daha çox inkişaf etmiş olduğunu göstərdi.

Üçüncü yanaşma tərəfdarları beynəlxalq hüquq tarixinini daha qədim dövrə bağlayırlar [4, s.203-206; 6, s.230-241; 9, s.220]. Bu istiqamət də 19-cu əsrdə Yer kürəsinin müəyyən bölgələrində ibtidai icma quruluşu səviyyəsində yaşayan tayfalar arasında cari münasibətlərin öyrənilməsinin məntiqi nəticəsi kimi meydana çıxmışdı. Belə ki, hazırda var olan ibtidai icmalar arasında müəyyən münasibətlər varsa, analoji münasibətlərin qədim dövrlərdə də yaşanmış olduğunu güman etməyə əsaslar vardır.

♦**Novruzova Səadət Səməd qızı** - Bakı Dövlət Universitetinin "Beynəlxalq ümumi hüquq" kafedrasının dissertantı, Xəzər Universitetinin hüquq fakültənin müəllimi (Azərbaycan). E-mail: saadat_n@yahoo.com

Beləliklə, beynəlxalq hüququn təşəkkülü ilə bağlı məsələ mübahisəli olaraq qalmaqda davam edir, kifayət baza olmaması səbəbindən bu sahədə fundamental tədqiqatlar aparılmamışdır [7, s.31].

Qeyd edək ki, beynəlxalq hüquq tarixinin hansı çağdan başlandığına dair konsensus beynəlxalq hüququn özünü hansı konekstdə anlamaqdan asılıdır. İki ölkəni və ya xalqı təmsil edən siyasi qurumlar arasında müəyyən münasibətləri davamlı tənzim etmək üçün formatından asılı olmayaraq bağlanmış tarixi əqd o halda ilk beynəlxalq akt sayıla bilər ki, həmin aktdan başlayaraq beynəlxalq hüququn bir sistem kimi inkişaf davamiyyətini izləmək mümkün olsun. Yox əgər, belə aktlar lokal və epizodik xarakterlidirsə, hər hansı səbəbdən onu üzvi davamı mümkün olmamışdırsa, belə aktlara beynəlxalq hüquq abidəsi statusu tanımaq və beynəlxalq hüquq tarixi fənni çərçivəsində predmet kimi qəbul etmək olar.

Eramızdan əvvəl təqribi 2100-cü ildə Mesopotamiya ərazisində yerləşən şəhər dövlətləri Laqaş və Ummanın hökmdarları arasında sərhədlərin qarşılqlı olaraq tanınması və pozulmayacağına dair bağlanan saziş hələ ki, ilk tarixi beynəlxalq akt olaraq qəbul edilməkdədir. Daha sonra e.ə. 1296-cı ildə Misir çarı II Ramzes və Hett çarı III Hetuşel arasında bağlanmış əbədi sülh və dostluq haqda saziş göstərilə bilər. Sazişdə suverenliklərin qarşılıqlı tanınması, təzavüzkar qəsdlərə son verilməsi, habelə tərəflərdən birinin yadelli təzavüzünə məruz qaldığı halda digər tərəfin kömək çağırısına gəlmək öhdəliyi təsbit edilmişdi [6, s.1-2].

Bu xüsusda, hərbi sazişlər və ittifaqların qədim dövrdə dövlətlərarası münasibətlərin əsas sterjenini təşkil etdiyini qeyd etmək lazım gəlir. Baxılan və sonrakı dövrlərə aid əksər sazişlər üçüncü güclərin təcavüzündən birgə qorunmaq üçün dövlətlər arasında təsis olunurdu. Sazişlər dini görüşlərlə öhdəliklənirdi. Məsələn, Şumer şəhər-dövlətləri arasında başğalanan sazişlər Şumer tanrıları qarşısında and-öhdəlik götürməyə dayanırdı. Sazişlərin bağlanması və əməl olunması üçün saziş tərflərinin ortaq dini inanclarının olması mühüm şərt idi. Qədim dövrlərə aid fərqli inanc sistemlərinə mənsub siyasi quruluşlar arasında saziş təcrübəsinə dair tarixi mənbə əldə olunmayıb.

Orta Şərqə dair baxılan mənbələr lokal və keçici xarakterli olmaqla, əsasən iki dövlətin özləri üçün müəyyən hüquqi fəza yaratması və bu çərçivədə yadelli və ya düşmən sayılan digər toplumlara qarşı birgə mübarizəsi səylərini ifadə edirdi. Oxşaq paradiqma müasir Hindistan və Çin ərazilərində baxılan dövrlər mövcud olmuş dövlətlər üçün də xarakterikdir. Bununla belə, hər böyük müharibədən sonra insanların yaşanan fəlakətlərə bir daha yol verməmək üçün müəyyən qaydalar təsbit etmək səyləri tarix boyu izlənilir. Bu üzdən, e.ə. 6-cı əsrə aid Kir manifesti, təqribən e.ə. 3-cü əsrə aid Manu qanunnaməsi beynəlxalq humanitar hüququn və insan haqlarının qarşılıqlı tanınması istiqamətində müəyyən şərtiliklə ilk addımlardan hesab oluna bilər. Xüsusən, Manu qanunnaməsi döyüşən tərəflər üçün konkret qadağalar müəyyən edirdi: yaralıları, təslim olanları, aman diləyənləri öldürməmək; dinc sakinlərin canına və əmlakına qəsd etməmək; işğal edilən ölkədə yerli idarəçilik qaydalarını dəyişdirməmək və sair [11, s.133-142].

Qeyd olunduğu kimi, hər hansı təzahürün genezisindən bəhs ediriksə, izlənən tarixi yolun ardıcıllığı, yəni varisliyi müəyyən edilə bilən olmalıdır. Qədim aktların xronolji-müqayisəli təhlili onlar arasında irsi bağlılıq göstərirsə, bu halda varislikdən danışa bilərik. Belə hallarda sonrakı sazişlərin əvvəlki sazişlərdən kök alması və ilkin versiyanın daha təkmil versiyasına çevrildiyi aydın görünməlidir. Təəssüf ki, qədim dövrə aid sazişlərdə hər hansı formada varislik nəticəsinə gəlmək mümkün deyil. Əlavə olaraq, qeyd edilən sazişlərə nə dərəcədə əməl olunması barədə də məlumatlar yoxdur. Müqayisə üçün, Antik Yunanıstanın şəhər-dövlətləri arasında bağlanmış sazişlərə dair məlumatlar tarixi onlara əməl edilməsindən daha çox, pozulması halları ilə səciyyəvi olduğunu göstərir. Hərçənd sazişlərə qarşılıqlı əməl edilməsi üçün müxtəlif mexanizmlərdən istifadə edilirdi:

girov saxlama, dini rituallar, and içmə, imzalama. Bütün bunlar ümid olunan nəticəni vermədikdə, sazişlərin müəyyən müddətə bağlanması, müddət başa çatdıqda və zəruri olduqda yeni şərtlərlə daha bir müddətə bağlanması praktikası meydana çıxır. Daimi ünsiyyət saxlamaq məqsədilə qarşılıqlı səfir təyin edilməsi, səfirlərin toxunulmazlığının təsbit edilməsi kimi qaydalar meydana gəlir. Səfirlərin toxunulmazlığı "diploma" adlanan xüsusi sənədlə təsbit olunurdu ki, bu da sonralar "diplomatiya" anlayışını meydana gətirdi [13, s.13]. Dövlətlər arasında münasibətlərin möhkəmliyi baxımından həmçinin *proksen* institutunun meydana gəlməsi önəmlıidir. Onların əsas vəzifəsi təmsil etdikləri dövlətin bu ölkədə yaşayan vətəndaşlarının mənaflərinin qorunması idi. Bu isə müasir konsulluqların ilk tarixi nümunəsi hesab olunur [8, s.11-15].

Bütün digər mühüm bəşəri təzahürlərdə olduğu kimi, beynəlxalq hüquq məsələsində də təməl ideyalar həyata keçməsindən çox daha öncə intellektual çevrələrdə meydana çıxır. İdeyanın universal və dünyəvi olması, yəni istisnasız olaraq bütün insan toplumlarına sirayət edə bilməsi üçün hər cür ayrı-seçkilik zəminlərindən arınması vacib şərtdir. Bu cür ideyalar ilk dəfə antik Yunanıstanda sofistlərin əsərlərində meydana çıxır. Daha sonra stoaçı filosoflar tərəfindən inkişaf etdirilən və "təbii hüquq" nəzəriyyəsi adlanan bu sistem hüquqların ilahi mənşəli olmasını deyil, insan təbiətindən irəli gəldiyini, kökünü insan şüurundan aldığını önə sürürdü. Xalqların fərqli inanc sistemləri, ilahi görüşləri, konkret tanrıları olduğu bir mühitdə hüquqları müəyyən mifoloji ilahi mənbələrə bağlamaq onların universallaşması yolunda əsas maneədir, buna görə, yunan filosoflar konkret ilahi mənbə deyil, ümumi ali məqama müraciət etmişdilər. Fərqli inanc sistemlərinə mənsub xalqlar üçün hər hansı dəyərin ortaqlaşması bu dəyəri mifoloji-dini sistemin inhisarından almaqla mümkün ola bilər. Yalnız bu halda xalqların və fərdlərin hüquqları hər hansı xalqla və ya qruplarla məhdudlaşmayan, bütün insanlara şamil olunan universium ola bilərdi.

Yunan hüquq fəlsəfəsinin irsi Roma respublikasının böyüyərək imperiyaya çevrilməsi ilə aktuallıq kəsb etməyə başlayır. Hər bir imperiya kimi, Roma da öz təşəkkülünün ilk mərhələsində istila edilən və ya müttəfiqlik qurulan xalqlarla münasibətlərin hüquqi rejimini müəyyən etməli idi. Romalı kimliyi müəyyən mifoloji qaynağa əsaslanırdı və respublika dövründə qəti müəyyənlik tapmışdı. Roma imperiyası dövründə romalı kimliyini imperiya ərazisinə yaymaq, koloniya xalqlarını romalı kimliyinə assimilyasiya etmək kimi təmayül izlənilmir, çünki romalılar genişlənməni öz kimlikləri üçün təhdid hesab edirdilər.

Roma vətəndaşıarlının şəxsi hüquq və azadlıqları Roma hüququnun ən qədim sistemi olan vətəndaş hüququ (ius civile) sistemi ilə tənzimlənirdi. Romalıların hüquq görüşlərinə əsasən, roma vətəndaşları və əcnəbilər arasında meyadan çıxan münasibətlər Roma vətəndaşları üçün olan kifayət qədər mürəkkəb hüquq sistemi ilə tənzimlənə bilməzdi. Bu isə öx növbəsində koloniya və müttəfiq xalqların hüququnun öyrənilməsi, romalı və qeyri-romalılar arasında münasibətləri tənzimləmək üçün yeni hüquqi bazanın yaranmasını şərtləndirmişdi. Əcnəbilərə aid işlərə baxan pretor və magistlərin çıxardığı qərarlar presedentə çevrilir və zaman keçdikcə, toplanmış hüquqi baza *jus gentium* presedent hüquq kodeksinin formalaşmasına və nəhayət Roma hüquq sisteminin tərkibinə daxil edilməsinə gətirib çıxarmışdı.

Jus gentium (tərcümədə - xalqların haqqı) Romalı filosof və hüquqşünaslar tərəfindən müxtəlif cür şərh olunmuşdu. Məsələn, Ulpiana görə, "xalqların haqqı – bəşər xalqlarının malik olduğu hüquqlardır". Qayın fikrincə, "təbii ağılla bütün insanlar üçün bərabər müəyyən olunmuş hüquq hər kəsə qarşı eyni cür riayət olunur və xalqların haqqı adlanır" [10].

Roma hüquqşünasları dövrünün müharibə, quldarlıq, edam və sair bu qəbil təzahürlərini xalqların haqqı doktrinasından çıxış edərək əsaslandırmağa çalışmışdılar. Belə ki, hər bir xalq

(romalılar daxil olmaqla) malik olduğu təbii hüquqlardan çıxış edərək, qarşılaşdıqları zərurətlər üzündən məcburən müharibələr edir, qul əməyindən istifadə edir, qatı caniləri edamala layiq görür və həmçinini eyni nədənlərlə gömrük, qarşılıqlı ticarət və sair mülki məsələlərin həll mexanizmlərini müəyyən edir. Beləliklə, təbii haqlar nəzəriyyəsi çərçivəsində əsaslandırıla bilməyən cari reallıqları (quldarlıq, edam, müharibələr və sair) xalqların haqqı nəzəriyyəsi kontekstində xalqların üzləşdiyi zərurətlərlə əsaslandırmağa cəhd edirdilər.

Roma imperiya siyasətinə uyğun olaraq, Romanın münasibətdə olduğu xalqların özəl adət-ənənələri təbii təzahür kimi qarşılanır, onları aşağılamaq və ya rədd etməyə cəhdlər edilmirdi. Antik Yunanıstanda olduğu kimi, Roma respublika və imperiya dövründə də xalqlar və barbarlar ayrı-seçkiliyi davam etmişdi. Odur ki, xalqların haqqı nəzəriyyəsi baxımından barbar tayfalar xalq sayılmır, müvafiq olaraq, barbarlara xalq haqqı tanınmırdı.

Xalqların haqqına dair fəlsəfi-ideoloji görüşlərə əsasən, romalılar özlərinə ümumi və xüsusi hüquq təsis etdikləri kimi digər xalqlar da öz reallıqlarına uyğun olaraq idarəetmə sistemi, hüququ aktları qəbul edir, öz adət-ənənələri ilə yaşamağa davam edirlər. İki xalq arasında olan münasibətlər onlardan yalnız birinin hüququna əsasən həll edilə bilməz, hər iki xalqın qayda-qanunları nəzərə alınmaqla ortaq normativ sistem müəyyən edilməlidir. Romalıların münasibətdə olduğu xalqlardan gözləntiləri konkret prinsiplərə dayanırdı: müttəfiq xalqlarla münasibətdə bağlanmış sazişlər qarşılıqı əməl olunmalı; müstəmləkə xalqları götürmüş olduğu öhdəliklərə əməl etməli, öz növbəsində Roma mərkəzi hakimiyyəti həmin xalqların ərazi və digər toxunulmazlıqlarını təmin etməlidir.

Diqqətəlayiq məqamdır ki, Roma imperiya reallığında xalqların haqqı təlimi beynəlxalq münasibətlərdə dövlətləri deyil, xalqları subyekt hesab edirdi. Ümumi görüşlərə əsasən, dövlətlər müvəqqəti, xalqlar isə daimidir. Dövlətlər yarana, yenidən təşkil oluna, bir neçə dövlətə paraçalana və ya birləşə bilərlər. Əsas olan siyasi quruluşlar deyil, onların təməlində dayanan xalqlardır. Xüsusən, hər hansı xalqın özünə aid dövlətinin olmaması onun hüquqlarını hər hansı formada kiçildə bilməz. Ölkələr arası münasibətlərdə subyektliyin xalqa tanınması həmçinin o deməkdir ki, fərdlərə xalqın nümayəndəsi olaraq hüquqlar tanınır, yəni fərdi hüquqlar ölkələr arasında bağlanan sazişlərin xüsusi predmeti deyildir.

Roma ərazisinə ticarət, investisiya və sair iqtisadi məqsədlərlə gələn və ya yaşayan əcnəbilər (pereqrinlər) imperiya mərkəzinin zənginləşməsində mühüm rol oynadığından, onlar üçün rahat və cəlbedici hüquqi rejim təsis olunması Roma hüquq yaradıcılığının əsas istiqamətlərindən biri olmuşdur. Hər bir imperialist xalq kimi romalılar da regionun maddi və mənəvi sərvətini yumşaq güclə mərkəzə çəkmək siyasəti izləyirdilər. Amma onlar bu siyasəti əvvəllər heç bir imperiyanın misalına görünməmiş hüquqi mexanizmlərlə edirdilər. Əyalətlərdən varlı şəxsləri, sənətkarları, alimləri və digər yaradıcı adamları mərkəzə cəlb etmək üçün onlar üçün qənaətbəxş hüquqi rejim yaradılmış, Roma vətəndaşlarına faktiki bərabər fəaliyyət imkanları təmin edilmişdi. Hər bir əyalətin Romada və digər böyük şəhərlərdə daimi nümayəndəlikləri fəaliyyət göstərir, onlar öz mənsublarının hüquqlarının qorunması üçün fəaliyyət göstərirdilər.

Bütün bunlar Roma imperiyası zəminində beynəlxalq hüququn ilk prototipinin yaranmış olduğunu təsdiq etməyə əsas verir. Bu sistem Qərbi Roma imperiyasının süqutundan sonra yaranmış Avropa dövlətləri arasında münasibətlərdə əsas istinad mənbəyi oldu. Avropa dövlətlərinin hamılıqla vahid dinə (xristianlıq) mənsub olması faktı Roma hüququnun resepsiyası ilə birləşincə daha möhkəm əsaslar üzərində yeni sivilizasiya quruculuğu başlanmış oldu. Eyni dinə mənsubluq hamılıqla daha asan qəbul edilə bilən vahid hüquq fəzasının yaranması üçün əlverişli ilkin şərt idi, lakin bir tərəfdən dini liderlərin vahid xristian dövləti yaratmağa çalışması, digər

tərəfdən, dövlətlərin öz suverenliyini qorumaq səyləri həm kilsə və dövlətlər arasında, həm də dövlətlər arasında dini zəminli toqquşmaların əsrlərlə davam edəcək təməllərini atmış oldu.

Roma hüququndan resepsiya olunmuş normalar dini qanunlarla sintez olunmuşdu. Dövlətlər arasında sazişlər dini rituallarla təsdiqlənir və İncillə möhürlənirdi. Sazişlərin qüvvədə olması üçün hələ də girov institutundan (müəyyən şəhərləri və ya əraziləri girov qoymaqla) istifadə edilir, bununla yanaşı, tarixdə ilk dəfə olaraq məsuliyyət aktı (interdikt) müəyyən edildi. Bu, kilsənin zaminliyi ilə bnağlanmış dövlətlərarası sazişlərin və ya kilsə qarşısında öhdəliklərin pozulmasına görə kilsədən ayırma şəklində tətbiq edilən cəza idi. Bu cəzaya məruz qalan ərazilər və ya şəxslər kilsənin himayəsindən məhrum olmuş sayılırdı. Bundan əlavə, sazişləri möhkəm tutmaq məqsədilə üçüncü dövlətlərin zaminliyi praktikası istifadə olunurdu.

X əsrdən başlayaraq Avropada beynəlxalq humanitar hüququn təşəkkülü istiqamətində ciddi irəliləyişlər meydana çıxmağa başlayır. Müharibələrin dinc əhaliyə, təsərrüfata, habel əkilsə əmlakına ağır zərərlər yetirməsi rifahı pisləşdirməklə yanaşı Avropa sivilizasiyasını güclənməkdə olan yeni İslam sivilizasiyası qarşısında zəif salmaqla təhdid edirdi. Odur ki, daxili müharibələr bəzən qaçılmaz olsa da, Avropa sivilizasiyasını zəiflətməyə deyil, yekunda gücləndirməyə xidmət etməli idi. Bu üzdən, Roma Papasının təşəbbüsləri ilə Avropa dövlətləri arasında müharibə qaydalarını humanistləşdirmək istiqamətində tədbirlər görülməsi geniş vüsət almağa başladı. Yeni qaydalara əsasən, dini rütbəli şəxslər, zəvvarlar, 12 yaşadaək uşaqlar, tacirlər hərbi hədəf ola bilməzdilər (subyektə görə məhdudlaşdırma). Kilsə obyektləri, əmlakı, torpaqları toxunulmaz elan edildi (obyektə görə məhdudlaşdırma). Dini bayram günləri hərbi əməliyyatlar qadağan edilir (zamana gözə məhdudlaşdırma). Cəngavər ordenlərinin cəmiyyətdə xüsusi yer tutması, cəngavərlik etikasının (rəqibə arxadan zərbə vurmamaq, səfirləri, qeroldları, xəbər daşıyanları girov götürməmək və ya edam etməmək, döyüşdən sonra yaralılara baş çəkən qeroldlara toxunmamaq və sair) möhkəmlənməsi – bütün bunlar və digər xüsusatlar beynəlxalq humanitar hüququn formalaşması istiqamətində mühüm irəiliəyiş hesab oluna bilər. Eyni zamanda İslam coğrafiyasında gedən proseslər izlənilir, rəqibin güclü tərəfləri öyrənilir, bütün bunlardan müəyyən nəticələr çıxarılırdı.

Orta Şərqdə İslamın yayılması və güclənməsi beynəlxalq münasibətlərdə şəriət qaydalarının təsirinin meydana çıxması ilə əlamətdardır. İslam kanonları təkcə səfirlərin deyil, ümumiyyətlə qonaqların toxunulmazlığı, aman institutu və sair təşəbbüsləri ilə humanitar hüququn inkişafına təkan verirdi. Sivilizasiyalar daim rəqabət şəraitində olduğundan, onların hər hansı birinin güc doğuran uğurunu digər sivilizasiyalar “geri qalmamaq” prinsipi ilə mümkün qədər mənimsəməyə çalışırdılar.

Humanitar hüquq və onun işığında insan haqları XV əsrdən başlayaraq fəlsəfə və ilahiyyat məktəbləri çərçivəsində ciddi diqqət obyektinə çevrilməyə başladı. İspaniyalı ilahiyyatçı, Salaman məktəbinin əsasını qoymuş Fransisko de Vitoriya (1486-1546) hərb və sülh haqda bir çox məsələlərin yeni doktrinası istiqamətində fundamental əsərlər yazdı. Müharibə elan etməzdən əvvəl münaqişənin sülhlə həll yoluna cəhdlər edilməsi; dinc əhalinin zərər çəkməməsi üçün mümkün tədbirlərin görülməsi; pasifist dini inanclara sahib şəxslərin orduya çağırışdan imtina hüququnun tanınması və sair məsələlər insan haqlarının beynəlxalq münasibətlərdə predmet olması zərurətini irəli sürürdü. Vitoriyanın əsərlərində beynəlxalq birlik anlayışı qalın xətlə keçir. Onun görmək istədiyi birlik suveren dövlətlərdən təşkil olunan bütöv canlı orqanizm (totus orbis) kimi təsəvvür olunur və daha sonra bu ideya “ümumdünya respublikası” doktrinasına inkişaf etdirilir. Belə ki, hər bir dövlət daxili məsələlərdə suveren qalmaqa, beynəlxalq münasibətlərdə üstquruma tabe olmalı, sülh öhdəliyi konkret sazişlərə deyil, təbii hüquqdan doğan jus gentiuma (xalqların haqqı) əsaslanmalıdır [2].

Vitoriyanın beynəlxalq birlik ideyalarını inkiaşf etdirən ispan filosofu və siyasi mütəfəkkir Fransisko Suares (1548-1617) insanların həmrəyliyinin iki səviyyəsindən bəhs edirdi: 1) yaşadığı müəyyən cəmiyyətin üzvü kimi cəmiyyət çərçivəsində və 2) bəşəriyyətin bir üzvü olaraq universal səviyyədə [3].

İtaliyalı hüquqşünas Alberiko Centili (1552-1608) xalqları beynəlxalq həyatın subyekti kimi nəzərdən keçirir. Onun fikrincə, xalqlar və hökmdarlar beynəlxalq birlik (sosietas orbis) qarşısında öhdəliklər daşıyırlar. İnsanlar ümumi ehtiyacları təmin etmək üçün cəmiyyət və dövlət qurduğu kimi, xalqlar da ümumi ehtiyaclarını beynəlxalq birlik qurmaqla təmin etməlidirlər [1].

XVI əsrin sonu XVII əsrin əvvəlləri Avropa tarixində tükədici müharibələrlə əlamətdardır. Bu dövr intellektual çevrələrdə və dövlətlərin siyasət quruculuğunda müharibələrin qarşısını almaq və ya ən azından qaydalar çərçivəsinə salmağın bir nömrəli vəzifə kimi meydana çıxması ilə də səciyyəvidir. Odur ki, Hüqo Qrotsinin (1583-1645) "Müharibə və sülh haqqına dair" əsəri (1625) geniş rezonansa səbəb olmuşdu. Fransisko de Vitoriya və Fransisko Suaresin əsərlərindən ilhamlanmış Qrotsi öz növbəsində təbii haqlar nəzəriyyəsindən çıxış edərək, haqqın insan və cəmiyyətin təbiətindən doğduğunu önə sürür, bununla belə, Tanrının rolunu da inkar etmirdi. Müharibələri aqressiv və özünü müdafiə xarakterli olmaqla fərqləndirərək, birinciləri qəbuledilməz sayırdı. Aqressiv olsa belə, müharibələr metod və vasitələr baxımından məhdudiyyətlərə tabe olmalıdır. Qanuna, Tanrıya və İnsana hörtmət əsasında, müharibə aparmağın qaydaları müəyyən edilməli, bu qaydalar hər cür cinayətlər törətmək azadlığı kimi görünən azğın müharibələrin qarşısını almalıdır. Cəmiyyətdə fərdlər arasında münasibətlər necə tənzim edilirsə, eyni məntiq və prinsiplərlə dövlətlərarası münasibətlər də tənzim olunmalıdır. Qrotsinin üç hissəli bu kitabında ortaya qoyduğu fundamental doktrinalar faktiki olaraq klassik beynəlxlaq hüququn sterjenlərini doğurmuşdur. Buna görə, Hüqo Qrotsi haqlı olaraq klassik beynəlxlaq hüququn banisi hesab edilməkdədir. Onun görüşləri daha sonralar xalis təbii haqlar doktrinası çərçivəsində Samuel Pufendorf, Xristian Tomazi, Emer de Vetal və digər görkəmli mütəfəkkirlərin əsərlərində inkişaf etdirilmişdir.

Qrotsinin fundamental əsərinin dərcindən az sonra, 1648-ci ildə Avropa tarixində strateji dönüş yaradan Vestfal sülh müqaviləsi baş tutdu. Dini zəmində başlamış və səkkiz milyondan çox insanın məhvinə səbəb olmuş otuz illik müharibəyə son qoyan bu müqavilə Avropa ölkələrinin dini zəminli müharibələrdən böyük ölçüdə xilas olmasına yol açdı. Vestfal sisteminin gətirdiyi əsas prinsiplər: milli maraqların və suverenliyin prioritetliyi; qüvvələr balansı; daxili işlərə qarşımağın yolverilməzliyi; dövlətlərin hüquq bərabərliyi; müqavilələrə əməl etmək öhdəliyi; beynəlxalq m9lərdə dipolmatiyaya üstünlük verilməsi oldu. Bütün bunlar Hüqo Qrotsinin irəli sürdüyü ideyaların böyük ölçüdə tanınması demək idi.

Vestfal sülhünün əsas tövhələrindən biri də, fikrimizcə, "həqiqət monopoliyası" adlandırıla bilən çoxəsrlik qanlı səhifənin geridə buraxılmasında ehtiva olunur. Cari reallıqları və haqqı keçmişin əfsanələri ilə əsaslandırmaq, xalqlara keçmişin prizmasından axmaqla suverenlik haqqı tanıyıb-tanımamaq, gələcəyə dair ən doğru yolu bildiyini iddia etmək və sair bu kimi ideoloji ehkamçılıq sistemi sübutların plüralizmi ilə sarsıdıldı. Yeni konsepsiyaya görə, bir xalqın özünəyetərliyindən çıxış edərək öz suverenliyini elan etməsi faktı onun suverenliyinin tanınması üçün kifayət olmalı idi.

Vestfal sülh doktrinası dini paraqdiqmaların təyinedici məqamdan uzaqlaşdırılması, bu məqamın rasionalizmə verilməsi yoluna çıxış kimi də səciyyə oluna bilər. Bu müqavilədən sonra Avropa tarixi mütləq monarxiyalardan milli dövlətçiliyə doğru qəti yön aldı. Milli dövlətlər sistemi isə öz növbəsində insan haqlarının universal dəyər qazanmasına zəmin olacaqdı. Odur ki, Vestfal

sülhündən Haaqa konfranslarına qədər olan zaman aralığı beynəlxalq hüququn klassik dövrü olaraq qəbul edilir.

## Biblioqrafiya

1. Alberico Gentili. [Elektron resurs]. URL: https://en.wikipedia.org/wiki/Alberico_Gentili
2. Francisco de Vitoria (Spanish theologian). [Elektron resurs]. URL: Encyclopædia Britannica.
3. Francisco Suárez. [Elektron resurs]. URL: https://en.wikipedia.org/wiki/Francisco_Su%C3%A1rez
4. Nguyen Quoc Dinh, P. Dailler, A. Pellet. Droit international public (фр.) // Librairiegénérate de Droit et de Jurisprudence. - Paris, 1987. Vol. 52, no. 1. - P. 203-206.
5. Nussbaum Arthur. A Concise History of the Law of Nations. - Columbia University, New York: Macmillan Company. 1947. - 361 p.
6. Parkinson F. Why and How to Study the History of Public International Law // Contemporary Problems of International Law: Essays in honour of Georg Schwarzenberger on his eightieth birthday / Edited by Bin Cheng and E. Brown. - London, 1988. - pp. 230-241;
7. Stephen C. Neff. A Short History of International Law // International Law / Ed. by Evans M.D. – 2003, p. 31-58.
8. Алексиева Б.Б. Тенденции развития института консульских привилегий и иммунитетов: дис… канд. юрид. наук. М., 2006, 150 с.
9. Аннерас Э. История европейского права. - М.: Наука, 1994. - 397 с.
10. Дигесты:1.I.4; 1.I.5 1.I.9
11. Законы Ману.- М.: ЭКСМО-Пресс, 2002.- 496 с.
12. Таубе М.А. История зарождения современного международного права (Средние века): введение и общая часть. - СПб.: тип. П.И. Шмидта, 1894, т. 1.
13. Попов В.И. Современная дипломатия – теория и практика. - М.: Научная литература, 2000. - 576 с.

**Novruzova S.S.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.71.65-73**
**UDC: 340.130.3-2**

## About history and formation of the classic international law

**Abstract:** The present article aims to explore the genesis of classical international law by studying well-known historic interstate treaties and the provisions reflected in them, which regulate various relations between ancient and medieval states. For this purpose, it is necessary to provide a general description of the normative relations that existed between people and states before the advent of the classical system, explore the historical paradigms, which determine these relations: in-

♦**Novruzova Saadat Samad** – a dissertator of "International General Law" Department of the Baku State University, a lecturer of Legal Faculty of the Khazar University (Azerbaijan). E-mail: saadat_n@yahoo.com

fluence of wars and trade, religious and mythological views, as well as the contribution of philosophical and other intellectual currents, and other related historical conditions.

**Keywords:** international law; agreement; nations; state.

**References**

1. Alberico Gentili. Available at: https://en.wikipedia.org/wiki/Alberico_Gentili
2. Francisco de Vitoria (Spanish theologian). Available at: Encyclopædia Britannica.
3. Francisco Suárez. Available at: https://en.wikipedia.org/wiki/Francisco_Su%C3%A1rez
4. Nguyen Quoc Dinh, P. Dailler, A. Pellet. Droit international public (фр.) // Librairiegénérate de Droit et de Jurisprudence. - Paris, 1987. Vol. 52, no 1. - P. 203-206.
5. Nussbaum Arthur. A Concise History of the Law of Nations. - Columbia University, New York: Macmillan Company. 1947. - 361 p.
6. Parkinson F. Why and How to Study the History of Public International Law // Contemporary Problems of International Law: Essays in honour of Georg Schwarzenberger on his eightieth birthday / Edited by Bin Cheng and E. Brown. - London, 1988. - pp. 230-241;
7. Stephen C. Neff. A Short History of International Law // International Law / Ed. by Evans M.D. –2003, p. 31-58.
8. Aleksieva B.B. *Tendentsii razvitiya institute konsul'skih privilegiy i immunitetov*: dis…kand. yurid. nauk [Trends in the development of the institution of consular privileges and immunities. PhD in Law Diss.]. Moscow, 2006, 150 p.
9. Anners Eric *Istoria evropeyskogo prava* [History of European Law]. Moscow, Nauka Publ., 1994, 397 p.
10. Digests:1.I.4; 1.I.5 1.I.9
11. Zakony Manu [Laws of Manu]. Moscow, EKSMO-Press Publ., 2002, 496 p.
12. Taube M.A. *Istoria zarozhdeniya sovremennogo mezhdunarodnogo prava (Srednie veka): Vvedeniei chats' obschaya* [History of the origin of modern international law (Middle Ages): Introduction and general part]. S. Petersburg, P.I. Schmidt Publ., 1894. Vol.1.
13. Popov V.I. *Sovremennaya diplomatiya – teoriya I praktika* [Modern diplomacy – theory and practice]. Moscow, Nauchnaya literatura Publ., 2000, 576 p.

**Новрузова С.С.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.71.65-73**
**УДК: 340.130.3-2**

## Об истории и становлении классического международного права

**Аннотация:** Ставится задача исследовать генезис классического международного права путем изучения известных из истории межгосударственных договоров и отраженных в них положений, регулирующих разные отношения между античными и средневековыми гос-

♦**Новрузова Саадат Самед кызы** – диссертант кафедры «Международное общее право» Бакинского госуниверситета, преподаватель юридического факультета Университета «Хазар» (Азербайджан). E-mail: saadat_n@yahoo.com

ударствами. Для этого необходимо дать общую характеристику нормативных отношений, существовавших между народами и государствами до появления классической системы, исследовать обусловливающие эти отношения исторические парадигмы - влияние войн и торговли, религиозно-мифологических взглядов, а также вклад философских и других интеллектуальных течений, и другие сопутствующие исторические условия.

**Ключевые слова:** международное право; соглашение; народы; государство.

## Библиография

1. Alberico Gentili. [Электронный ресурс]. URL: https://en.wikipedia.org/wiki/Alberico_Gentili

2. Francisco de Vitoria (Spanish theologian). [Электронный ресурс]. URL: Encyclopædia Britannica.

3. Francisco Suárez. [Электронный ресурс]. URL:https://en.wikipedia.org/wiki/Francisco_Su%C3%A1rez

4. Nguyen Quoc Dinh, P. Dailler, A. Pellet. Droit international public (фр.) // Librairiegénérate de Droit et de Jurisprudence. - Paris, 1987. Vol. 52, no. 1. - P. 203-206.

5. Nussbaum Arthur. A Concise History of the Law of Nations. - Columbia University, New York: Macmillan Company. 1947. - 361 p.

6. Parkinson F. Why and How to Study the History of Public International Law // Contemporary Problems of International Law: Essays in honour of Georg Schwarzenberger on his eightieth birthday / Edited by Bin Cheng and E. Brown. - London, 1988. - pp. 230-241;

7. Stephen C. Neff. A Short History of International Law // International Law / Ed. by Evans M.D. – 2003, p. 31-58.

8. Алексиева Б.Б. Тенденции развития института консульских привилегий и иммунитетов: дис… канд. юрид. наук. М., 2006, 150 с.

9. Аннерас Э. История европейского права. - М.: Наука, 1994. - 397 с.

10. Дигесты:1.I.4; 1.I.5 1.I.9

11. Законы Ману.- М.: ЭКСМО-Пресс, 2002.- 496 с.

12. Таубе М.А. История зарождения современного международного права (Средние века): введение и общая часть. - СПб.: тип. П.И. Шмидта, 1894, т. 1.

13. Попов В.И. Современная дипломатия – теория и практика. - М.: Научная литература, 2000. - 576 с.